## ZƏFƏR YÜRÜŞÜNDƏN 5 İL ÖTÜR...

# MƏN, MƏNİM QƏHRƏMANIM VƏ YURDUM

### *Qarabağa qayıdış: xatirələr, duyğular, arzular*



*Elçin MEHRƏLİYEV,*
*yazıçı-publisist,*
*filologiya elmləri doktoru*

### 8. GOREŞƏN

Nəhayət, gözümüzün qarşısındakı qandonduran dəhşətli qəbirstanlıq mənzərəsi... Ermənilər 900 yaşayış məntəqəmizi işğal edib viran qoyublarsa, deməli ən azı 1000-dən çox qəbirstanlıq dağıdıblar. Hər qəbirstanlıqda da, sözsüz ki, minlərlə qəbir olub. Onları dağıtmaq bir ilin, beş ilin, yüz yaxud min erməninin işi deyil, on minlərlə erməni düz otuz il qəbir qazıb, kəllə, sümük eşələməklə məşğul olub. Ermənilərin sürəkli şəkildə, elliklə qatı cinayətkarlığa qurşanması buna səbəb kimi Rusiya və Avropa dövlətləri tərəfindən təhrik edilmə barədəki fikirləri qətiyyətlə rədd edir. Doğrudur, havadarlar Şərqdə iğtişaşların törədilməsində həmişə maraqlı olmuş, öz "fitnə-siyasətlərini" həyata keçirmişlər, lakin kütləvi və ağlagəlməz cinayətkarlıq birmənalı olaraq ermənilərin özlərinin vəhşi instinktindən, qan tökməyə, dağıtmağa, viranediciliyə meylli tayfa olmalarından irəli gəlir. Başqa sözlə, bu kimi tükürpədən aksiyalardan belə nəticə hasil olur ki, Bakı Humanitar kollecinin tədqiqatçı-müəllimi Yasir Hacıyevin dediyi kimi, hər bir erməni ölüm və vandalizm daşıyıcısıdır.

Eləcə də, 1700 tarix və mədəniyyət abidələrinin üzərindəki tarixlər, divar yazıları götürülərək erməni mətnləri ilə əvəzlənib, erməni işğalı altında qalan 27 muzey və şəkil qalereyasından 100 min eksponat qarət olunaraq Ermənistana daşınıb, 500-dək tarixi memarlıq, 100-dən artıq arxeoloji abidə, fondlarında on minlərlə əşyanın toplandığı 22 muzey, 4,6 milyon kitab və əlyazmaları saaxlanılan 927 kitabxana, 808 klub, 85 musiqi və incəsənət məktəbi, 10 istirahət və mədəniyyət parkı, şəxsi evlərdə saxlanan 100 minlərlə dekorativ-tətbiqi sənət nümunələri (xalçalar, tikmənaxışlı qədim geyimlər, zərgərlik və misgərlik əşyaları və s.) ermənilər tərəfindən talan edilib. Bu, bir natamam siyahıdır və görəsən, bu qədər cinayətlərin həyata keçirilməsində meçə nin erməni iştirak etmişdir? Bəs dünya əhəmiyyətli arxeoloji abidə olan paleolit dövrünə aid Azıx və Tağlar mağara düşərgələrinin, b. e. ə. VII-VI əsrlərə aid və insan sivilizasiyasını öyrənməliyik üçün indi də elmi cəhətdə aktuallığı ilə fərqlənən eneolit dövrünə aid Xantəpə, Kültəpə və Şomutəpə arxeoloji abidələrinə "əl gəzdirmək" üçün neçə nəfər erməni lazım olub? Kəlbəcər Tarix Muzeyindəki nadir eksponatların. o cümlədən eramızdan 3000 il əvvlki dövrə aid qızıl və gümüş əşyaların, Laçın Tarix Muzeyindəki qədim pul sikkə kolleksiyasının, Şuşa tarix muzeyindəki 5000 eksponatın, Qarabağ Dövlət Tarix Muzeyindəki 1000-ə yaxın eksponatın, habelə Üzeyir Hacıbəyovun, Bülbülün, Nir Möhsün Nəvvabın Ev Muzeylərindəki eksponatların, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli muzeylərindəki minlərlə eksponatın talan edilməsi, daşınması, özününküləşdirilməsi, yaxud "erməni milli mədəniyyətinin nümunəsi" adı altında xarici ölkələrdə satılması neçə min erməninin iştirakı ilə baş vermişdir?

Bilirsiz, erməni vəhşiliyindən danışarkən gəlin onları, bir tərəfdən "daşnak", "şovinist", "millətçi", "neofaşist", digər tərəfdən "zəhmətkeş", "yazıq", "sadə", "dinc" və s. adlarla təsnif edib özümüzü aldatmayaq. Əgər bir xalq küllü şəkildə qatildirsə, hamılıqla dağıtmaqdan, yandırmaqdan, öldürməkdən həzz alırsa bunun adı başqadır və onu parçalamaq, hər hansı epitet və təşbehlərlə bəzəmək sadəlövhlükdür.

Mən Güllücə kənd qəbirstanlığına baxdıqca bütün yer üzünə səslənmək istəyirəm:

" Ey dünya, ey insanlar!

Siz uzun illər erməni daşnakların Azərbaycanda törətdiyi vəhşilikləri, amansızlıqları görə-görə səsinizi çıxarmadız, təcavüzkarı öz adı ilə çağırmadınız, insan haqlarını müdafiə etmədiniz. Şükürlər olsun ki, biz qəddar düşməni torpaqlarımızdan qovub çıxara bildik. Heç olmasa, indi onların törətdiyi faciələrə biganə qalmayın! Gəlin, baxın, görün ki, xəyali tarix uydurub, saxta "sənədlər" quraşdırıb hay-həşir salmaqla özlərini dünyada "soyqırıma məruz qalmış", "əzabkeş", "mədəni" millət kimi tanıdıb-sırımağa çalışan erməni əslində kimdir, nə kimi varlıqdır? Gəlin, terrorçu dövlətin törətdiyi cinayətlərin anoloqu olmayan müdhişliyini gözünüzlə görün! Yüz illərdi qana-qırğına səsləyən daşnakların öz dığalarına verdiyi təlim-tərbiyənin, etdikləri çağırışların vəhşi mahiyyəti ilə əyani şəkildə tanış olun! Şaginyan, Kaputikyan, Aqanbekyan, Hambartsumyan, Ulubabayan, Balayan, Mkrtıçyan, Xamzadyan, ...yan, yan kimi erməni siyasətbazları və "tarix qayıranlarının", özünü milli azadlıq hərəkatı liderli kimi reklam edən Sarkisyan, Petrosyan, Koçaryan, Arakelyan, ...yan, ...yan kimilərinin iç üzünü görün. Unutmayın ki, bizin "Yer kürəsi" adında bir evimiz var və biz bu evdə dilimizdən, dinimizdən, milli mənsubiyyətimizdən asılı olmayaraq, yanyana, dinc, mehriban şəraitdə yaşamalı, bir-birimizdən öyrənməli, faydalanmalıyıq. Bu evdə peyda olan, buqələmun kimi rəngini dəyişə-dəyişə həyatımıza müdhiş fəlakətlər gətirən qaniçən bədheybətlərə qarşı mübarizə aparmaq da hamımızın borcudur. Əgər bunu etməsək, növbbəti təhlükələrin yan keçəcəyinə ümid etməyimiz əbəsdir. Yetər ki, bir ovuc erməni məxluqatı sifətdən-sifətə düşə-düşə o boyda Yer kürəsini qurama qlobusa çevirib istədiyi səmtə fırlatsın.

Siz də, ey zaman-zaman dünyanı yenidən bölüşdürüb pay götürmək marağı ilə fit verib münaqişə ocaqları qalayan marığa yatanlar, yoxsa bu dünyanın axırına çıxmayanacan sakitləşməyəcəksiz!? Ötən 100 ildə erməni vandalizminə münasibətinizdə görüb-anladım ki, bir çoxunuz burnunun ucundan uzağı görə bilmir. Anlamaq istəmir ki, əl tulasından qurdboğan çıxmaz. Başa düşmək istəmir ki, yeri-göyü yaradan var və onun da səbri sonsuz deyil. Ağlınızı başınıza yığın, beş günlük ömrünüzdə əbədi dünyanın taleyi ilə oynamayın! İnsanla insan kimi davranın! İnsanlığa qənim kəsilən vəhşi məxluqata nəhayət ki, yerini göstərin! Əgər bunu etməsəz, nəinki kiçik xalqların və dövlətlərin, heç sizin kimi böyük, qüdrətli xalqların və dövlətlərin də günəşli sabaha ümid etməsi əbəsdir."

Yeri gəlmişkən, məni ermənilərin qəbirstanlıqları dağıtmaq, məzarları qazmaq, sümükləri ətrafa səpələmək məsələsi xüsusi olaraq düşündürürdü. Yəni bir qızıl diş tapmaq üçünmü edirlər bu alçaqlığı? Ya baş daşlarını yenidən istifadə etmək üçünmü daşıyıb aparırlar? İzimizi-tozumuzu qaşıyıb yox etməyəmi çalışırlar? Ya başqa səbəblər də var?

Bakıya qayıdanda, rəhmətlik professor Şirməmməd Hüseynovun həyat yoldaşı, İnstitumuzun əməkdaşı Ülkər xanımla söhbət əsnasında bu narahatçılığımı bildirdim. O isə mənə: "Belə düşünürəm ki, bu daha çox DNT və tarix məsələsi ilə əlaqəlidir" - dedi və iş otağından bir kitab gətirib, işarələdiyi yazını oxumağı məsləhət gördü. Bu yazı Ülkər xanımın ABŞ-ın Ayova Universitetinin Sitogenetika laboratoriyasının direktoru, Molekulyar biologiya üzrə fəlsəfə doktoru, professor Aqşin Fərhad oğlu Tağıyevlə müsahibədən ibarət idi. Müsahibəni oxudum. Əvvəla, mənə məlum oldu ki, bu DNT (Dezoksiribo Nuklein Turşusu) və onun ardıcıllığının təyin olunması nə olan şeydir və onun mahiyyəti nədir? Demə, bu DNT insan genetikası üzrə tədqiqatlarla bağlı məsələdir. DNT ardıcıllığının təyin olunması hazırda molekulyar tibdən başlamış insan təkamülünə qədər bir çox elm sahələrinin tədqiq olunmasında, mürəkkəb problemlərin öyrənilməsində tətbiqini gösrərməkdədir. Bioarxeologiya və antropologiya kimi elm sahələrində də genetika öz qəti sözünü deyir. Professor Tağıyev genetika sahəsində çalışan bir sıra görkəmli dünya alimlərinin tədqiqatlarına və gəldikləri elmi nəticələrə istinad edərək, həmin nəticələrin əhəmiyyətini və Azərbaycanın tarixi vəziyyəti ilə əlaqədar aktuallığını nəzərə alaraq fikirlərini bölüşür. Mən onun dediklərindən aldığım nəticələri belə ümumiləşdirirəm:

1. Qafqazlı irqi və ya "Qafqazoid" termini ilk dəfə alman filosofu Kristofer Meiner tərəfindən 1875-ci ildə "İnsanlığın qısa tarixi" əsərində işlədilmişdir. Həmin əsərdə Meiner kəllə sümüklərinin ölçülərini təhlil edərək ağ irqin Qafqaz tatarlarından, yəni müasir azərbaycanlılardan törəndiyi qənaətinə gəlmişdir.

2. Azərbaycanlılar Qafqazın ən qədim xalqlarından biridir və müasir azərbaycanlıların genetik kökləri 20-25 min il dərinliyə gedir.

3. Müasir avropalıların böyük əksəriyyətinin genetik mənşəyi öz başlanğıcını buradan götürmüşdür.

4. Buna baxmayaraq, Azərbaycan genetik fondunun Avropa genetik fonduna təsiri qeyd edilmir. Çünki, təəssüf ki, Azərbaycan Respublikasında bu sahə kifayət qədər tədqiq olunmayıb.

5. Bu çatışmazlıqdan erməni qrupları süni istifadə edirlər. İranlı erməni alimlər azərbaycanlıların DNT nümunələrini tədqiq edərək üzə çıxardıqları nəticələri özlərinə əl verən şəkildə yayırlar. Sonra da həmin nəticələrə istinad edərək, azərbaycanlıların və türklərin kimliyini kiçiltməyə və öz ərazi iddialarına haqq qazandırmağa çalışırlar.

6. Azərbaycan molekulyar-bioloq tarixçiləri bir araya gəlib arxeoloji və bioarxeoloji elmi tədqiqatları genişləndirməsələr, biz 20-25 illik tariximizə sahib çıxmasaq, təbiidir ki, başqaları ona sahib çıxacaqlar.

Beləliklə, ermənilərin goreşən kimi qəbir qazmalarının, kəllə, sümük eşələmələrinin, qəbiristanlıqlarımızı viranə qoymalarının başqa bir səbəbi də aydınlaşır və bu səbəb ermənilik barəsində ürəkbulandırıcı təsir bağışlamaqla yanaşı, özlərini Qafqazda yerləşdirmək, yerli xalqları sıxışdırmaqla getgedə möhkəmlənmək və ərazilərini böyütmək yolundakı ardıcıl və sürəkli inadkarlığı haqqındakı təsəvvürü də gücləndirir. Erməni kilsə xadimlərinin Alban kilsəsinin ilk quruluşunda dəyişiklik aparmaqla ermənilərin alban mədəniyyətinin varisi olmağa can atması, Azərbaycan xalqına məxsus maddi-mədəniyyət abidələrini öz adlarına çıxmağa, yaxud məhv etməyə çalışması, qədim qayaüstü yazıları pozaraq erməniləşdirməyə cəhd göstərməsi, qədim türk abidə və fiqurlarını (bir vaxtlar Azərbaycanın dağlarında, düzlərində tez-tez rast gəlinən qoç fiqurlarının, qədim tikililərimizdəki milli ornamentlərin taleyini və s. yada salaq) sındırılıb-dağıtması, yerin altında da, üstündə də, hətta suların dərinliyində belə bir xaç şəkli həkk etdirməsi çoxdanın söhbətidi. İndi xatırlayıram ki, mən 1985-ci ildə Laçın rayonunda ezamiyyətdə olarkən, yerli sakinlər Minkənd kəndindən yuxarıda, dağ döşündəki yolun kənarında bir qayanı göstərib demişdilər: "Heç vaxt belə bir qaya olmayıb buralarda. Üstündə xaç şəkli var. Ermənilər gətirib atıb."

***(Davamı 3-cü səhifədə)***

*(Əvvəli 2-ci səhifədə)*

Ermənilər bu kimi fırıldaqçı vasitələrlə nəinki Qarabağ ərazisini, hətta Zəngilan-Qubadlı-Naxçıvan, Qazax-Şamxor-Gəncə, Şəki-Zaqatala, Şamaxı-Göyçay, Bakı-Quba, Salyan-Lənkəran və s. ərazilərimizi ələ keçirməyi planlaşdırırlar. Bir sözlə, onların məqsədi Azərbaycan xalqını yer üzündən silmək, torpaqlarına yiyələnməkdir.

Ermənilər Azərbaycan xalqının tarixi ilə yanaşı, ədəbiyyatına, musiqi mədəniyyətinə və məişətinə də şərik çıxır, ən qiymətli sənət incilərini özlərininki kimi qələmə verir, yaxud iqtibas edərək «erməniləşdirirlər». D.Dzuni adlı birisi yazırdı: «Şərq və erməni operettaları - «Məşədi İbad», «Arşın mal alan» bütün dünyaya yayılıb». H.Simonyan adlı bir qeyrisi «Qrakan Tert» («Ədəbiyyat qəzeti») qəzetinin 1989-cu il 11 avqust tarixli sayında dərc etdirdiyi «Unudulmuş sax-ta-kar-lıq» adlı məqaləsində N.Gəncəvinin Azərbaycan mədəniyyətinə məxsus olmadığını, Ermənistanı və erməniləri təsvir və tərənnüm etdiyini iddia edirdi». 1979-cu ildə Moskvada rus dilində nəşr olunan «Armənskiy folğklor», 1983-cü ildə Yerevanda rus dilində çapdan çıxmış «Armənskie narodnıe skazki» kitablarında Azərbaycan xalqına, Qarabağ ağız ədəbiyyatına məxsus çoxlu sayda nümunələr, bu kitabların lüğət hissəsində verilmiş bir sıra türk sözləri erməni ağız ədəbiyyatı nümunələri və erməni sözləri kimi təqdim olunurdu. Bu cür misalların sayını istənilən qədər artırmaq mümkündür.

Ermənilər tarixi abidələrimizi öz adlarına çıxmaqla bərabər, ictimai-siyasi və sosial-mədəni inkişafımıza da mane olmağa çalışmış, bu məqsədlə hər cür va-si-tə-dən istifadə etmişlər. Belə bir tarixi fakta diqqət yetirək: Qafqaz Senzura Komitəsinin yaradıldığı 1820-ci ildən çarın 1905-ci il 17 oktyabr tarixli çar dekretinə qədər (nə az, nə çox, düz 85 il!) bütün azərbaycandilli çap məhsullarının, o cümlədən, Azərbaycan mətbuatının senzurası erməni məmurlarının əlində olmuşdur. Qaf-qaz-da şərq dilləri üzrə ilk və son senzor kimi fəaliyyət göstərmiş Mirzə Şərif Mirzəyevin "Qafqazda türk mətbuatı tarixinə dair materiallar" əsərindən aydın olur ki, bu komitə müxtəlif bəhanələrlə Azərbaycan türklərinin öz dillərində mətbuat yaratmaması üçün hər yola əl atmışlar. Hətta buna nail olunduğu tək-tük hallarda belə, yenə müxtəlif bəhanələrlə, əsasən də siyasi qarayaxmalarla fəaliyyətləri dayandırılmışdır. Müəllif qeyd edir ki, 1870-ci ildə Qafqazda rus dilində 26, gürcü dilində 17, erməni dilində 13 mətbu orqan fəaliyyət göstərdiyi halda, azərbay-can-lı-lar ilk qəzetlərini (Həsən bəy Zərdabinin "Əkinçi"si nəzərdə tutulur) yalnız 1875-ci ildə yaratmağa nail olmuşdular. Başqa bir fakt: 1884-cü ildə Qafqazda rus dilində 10490, erməni dilində 4700, gürcü dilində 1360, Azərbaycan dilində isə vur-tut 100 nüsxə qəzet-jurnal nəşr olunub. Həmin dövrdə azərbaycanca yeganə jurnal Cəlal Ünsüzadənin Tiflisdə çıxartdığı "Kəşkül" jurnalıdır ki, onun da cəmi on nömrəsi işıq üzü görmüşdür.

Milli təhlükəsizlik məsələsinə başqa yöndən yanaşaq. Ermənilər buqələmun kimi "rənglərini" dəyişməyi bacarırlar. Lazım gələndə hər cür dona girir, hər kələkdən istifadə edirlər. Yazıçı-publisist Famil Süleymanov hələ 1990-cı illərdə yazdığı "Ana gördüm gözü yaşlı" adlı kitabında ölüm ayağında olan bir erməninin etirafına əsasanaraq Yerevanda fəaliyyət göstərən "qapalı məktəb" barədə məlumat vermişdi. Onun yazdıqlarına görə, bu məktəbə atılmış, yaxud yetim qalmış erməni uşaqları cəlb edilir və onlara valideynlərinin türklər tərəfindən işgəncələrlə öldürülməsi fikri təlqin olunmaqla türkə qarşı hədsiz nifrət ruhunda tərbiyə verilir, Azərbaycan dili öyrədilir, hərbi təlim keçilir, məktəbi bitirəndə isə türk ad-soyadlı şəxsiyyət vəsiqəsi verilərək rus dilli institut və universitetlərdə, hərbi məktəb və akademiyalarda oxumaları və bir "bacarıqlı" kadr, mütəxəssis kimi strateji obyektlərdə, dövlət strukturlarında yerləşdirilib irəli çəkilmələrinə şərait yaradılır. Bütün bunlar sovet dönəmində baş verirdi və ermənilərin istər ölkənin mərkəzi şəhərlərində, istərsə də Azərbaycanda yerləşdirdiyi həmin "minaların" hansı fəsadlara gətirib çıxartmasını təsəvvür etmək çətin deyildir.

# MƏN, MƏNİM QƏHRƏMANIM VƏ YURDUM

## *Qarabağa qayıdış: xatirələr, duyğular, arzular*

Budur, bu da son illərin araşdırması - qələm dostum Araz Qurbanovun "Müsəlman ermənilər". Regionda geosiyasi oyunların yeni iştirakçıları" (Bakı, "Avropa" nəşriyyatı, 2017) adlı etnosiyasi oçerklər kitabında erməni təhdidinin daha bir ünvanı göstərilir. Əsərdə Ermənistanın Azərbaycana, Türkiyəyə və Gürcüstana qarşı ərazi iddialarında, qondarma "erməni soyqırımı" tələblərində, fövqəlgüclərin regionda geosiyasi maraqlarının ödənilməsində yeni iştirakçılardan - müsəlman ermənilərdən, kriptoermənilərdən və "erməni" kimi təqdim etdikləri həmşinlilərdən istifadə cəhdlərindən bəhs olunur. Adını xatırlatdığım hər iki kitabdan belə nəticə çıxartmaq olar ki, biz həm də sıralarımıza soxulmuş, aramızda yaşayan "həmkəndli", "həmşəhərli", "dost", "vətəndaş", "məsləkdaş", hətta "qar-daş", "soydaş", "dindaş" və s. kimi qiyafələrdə görsənən buqələmun və bom-ba-ları da vaxtında seçib zərərsizləşdirməyi bacarmalıyıq. Bu isə asan məsələ deyil, çünki, XIX əsr Rusiya tədqiqatçısı V.Yelixovskayanın yazdığı kimi, dünyaya səpələnmiş ermənilər birlikdə yaşadıqları xalqların adətlərini, geyim və ənənələrini götürürlər. Türkiyədə ermənini türkdən, İranda isə iranlıdan ayıra bilməzsən.

Beləliklə, mən bizi narahat edən məsələlərə qısa və qaçaraq nəzər yetirməklə yenidən Amerika kəşf etmədim. Yuxarıda qoyduğum suallar kimi, həmin suallarla bağlı gəldiyim qənaətlər də yeni deyil və ötən yüzillərdə hasilə gəlmiş qənaət və nəticələrin bir növ özünəməxsus təsdiqi və məntiqi davamıdır. Lakin belə görünür ki, tarixin dolaylarında məlun olanların "naməlumlaşdırılması" probleme dönə-dönə qayıtmağa vadar edəcəkdir, yoxsa biz Ermənistan-Azərbaycan münaqişələri arxasında nə kimi həqiqətlərin gizlənməsi barədəki bilgilərimizi yenə də unuda bilərik.

**2025**